**AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI**

# SƏRƏNCAM

**2 iyun 2026-cı il** **10-1/3-3-22/2026**

## Auditorlar Palatasında keçiriləcək tədbirlərin (konfranslar, ictimai-siyasi tədbirlər, “dəyirmi masa”lar, seminarlar, ustad dərsləri və s.) təşkili və təşviqi barədə

Auditorlar Palatasının 2026-cı il üzrə iş planının 10.3-cü “Auditin aktual problemləri üzrə konfransların, “dəyirmi masa”ların, ustad dərslərinin, seminarların təşkili” bəndinin icrasına və 2026-cı ildə keçiriləcək ictimai-siyasi tədbirlərin qrafikinə uyğun olaraq vaxtında və yüksək səviyyədə təşkilini, habelə Auditorlar Palatasının üzvlərinin və maraqlı tərəflərin həmin tədbirlərlə bağlı vaxtında məlumatlandırılmasını, onların iştirakı vəziyyətinin müəyyənləşdirilməsi, təhlili və eyni zamanda bu tədbirlərin təşviqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Auditorlar Palatasının daxili auditoruna (Ş.Əsgərova) və Xüsusi Auditlər, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, Daxili Nəzarət və Forenzik Təhlillər İdarəsinə (Ə.Aslanov, Z.Almazov) tapşırılsın ki, hər ayın 25-dək növbəti ay üçün keçiriləcək tədbirlərin dəqiqləşdirilmiş qrafikini hazırlayıb Palatanın və struktur bölmələrinin rəhbərlərinə, üzvlərinə, müvafiq icraçılara, digər maraqlı tərəflərə çatdırılması və Palatanın internet səhifəsində, sosial şəbəkələrində, “Auditorun şəxsi kabineti” sistemində yerləşdirilməsi təmin edilsin.

2. Keçiriləcək tədbirlərin hazırlanmasına məsul olan şəxslərə (Q.Bayramov, F.Qarayev, Q.Əhmədov, Ə.Aslanov, E.Hacıyeva, Z.Almazov, F.Kamalova, E.İsayeva, M.Hüseynova) tapşırılsın ki:

2.1. tədbirlərlə əlaqədar tədris materiallarının yüksək keyfiyyətlə hazırlanması və Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi üçün təqdim olunması təmin edilsin;

2.2. tədbirlərin yüksək səviyyədə keçirilməsi üçün təşkilati-texniki işlərin həyata keçirilməsi və nəticələri barədə məlumatın üç gün müddətində ictimaiyyətə çatdırılması məqsədilə Palatanın internet səhifəsində və sosial şəbəkələrində yerləşdirilməsi təmin edilsin;

2.3. Palata üzvlərinin və digər iştirakçıların (o cümlədən xarici mütəxəssislərin) keçiriləcək tədbirlərdə onlayn iştirakı məsələsini həll etsinlər.

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/BEln1iEsOoy23P8EteYjUDDJGswqjrjEqzook52JuEw%3D

3. Xüsusi Auditlər, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, Daxili Nəzarət və Forenzik Təhlillər İdarəsinə (Ə.Aslanov, Z.Almazov) tapşırılsın ki, Palata üzvlərinin tədbirlərdə iştirakının monitorinqi aparılsın və müvafiq qaydada rəsmiləşdirilməsi təmin edilsin.

4. Auditorlar Palatasının daxili auditoruna (Ş.Əsgərova) tapşırılsın ki, tədbirlərin vaxtında və keyfiyyətlə keçirilməsinə nəzarət etsin və nəticəsi barədə Auditorlar Palatasının rəhbərliyinə arayış təqdim olunmasını təmin etsin.

5. Auditorlar Palatasının üzvlərinə tövsiyə olunsun ki, Palata tərəfindən təşkil edilən tədbirlərdə fəal iştirak etsinlər və keçirilən tədbirlərə dair öz münasibətlərini bildirsinlər.

6. Bu sərəncamın mətni Palatanın internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/BEln1iEsOoy23P8EteYjUDDJGswqjrjEqzook52JuEw%3D